Türküstan. - 2024.- 16-22 iyul, №26.- S. 13.



İlqar
MÜZƏFFƏROĞLU,
AJB-nin üzvü

# O günəş mütləq doğacaq

**Esse**

***Axşam çağı idi. Axşam öz qaraya çalan çadrası ilə yaxınlaşırdı. Günəş qürubaenirdi. Solğun qanadlarını öz içinə çəkirdi. 1 saata yaxın idi ki, həyətdə üzü Qibləyə,Kəpəzə səmt oturub, bu mənzərəni seyr edirdim. Bəzən keçmiş xatirələr beynimididirdi. Qarabağımız və Qazağımızın kəndləri işğaldan azad olunduqdan sonra dərketməyə başladım ki, nəyə görə rəhmətlik atam mənə təkid edirdi.***

Bir neçə gün idi ki, həyətyanı torpaq sahəsi almışdım. Atam mübarəkdanlığagəlmişdi. O gələndə tikəcəyim evin səmtini müəyyənləşdirirdim. Mənim fikrim evinsəmtini gündoğan istiqamətdə tikdirmək idi. Mən istəyirdim ki, qapını, pəncərəniaçanda günəşin ilk şüaları evimə dolsun. Evim təbii nura qərq olsun. Atam isə təkidləetiraz etdi. Əlini Kəpəzə tərəf uzadaraq: bala, evin səmtini bax, oraya, Qibləyə tərəftikdir. Səmti Qibləyə olan ev bərəkətli, həm də uğurlu olar. Sənin günəşin Kəpəzinarxasından doğacaq.

Son vaxtlar bu hallar tez-tez baş verir. Havalar xoş olduqca üzü Qibləyə oturubgözlərimi müqəddəs Kəpəzimizə zilləyirəm. Sanki hansısa qüvvə o tərəfdən məniözünə çəkir. Əksər hallarda gözlərim yol çəkir. O yol məni xəyalən Kəpəzi aşıraraq,Göyçə gölünün üzərindən keçirib, dədə-baba yurdumuz Dərəçiçək mahalının Paşakəndinə aparır. Məni orada ilk qarşılayan Dərəçiçək mahalında böyük hörmət sahibiolan Daşdı babamın və İkinci Dünya Müharibəsində itkin düşmüş Abuzər əmiminruhları olur. Onların ruhları mənə həmişə narahat və qayğılı görünür.

Mən onlardan narahatlıqlarını soruşduqda: bala, biz vətəndə olsaq davətəndaşlardan, sizlərdən ayrı düşmüşük. Narahatçılığımız ondandır. Görürsən Keçəldağ bomboz qalıb, Cökəlik öz yaşıllığını itirib. Şiş qayadan heç bir əzəmət qalmayıb.Daylaqölən insan nəfəsinə həsrətdir, bərəkətli torpaqlarımızın bərəkəti göyə sovrulub,dağların döşündən axan bulaqlar öz şəffaflığını itirib. Bizimlə bərabər dədə-babayurdumuz da narahatdır. Sizin, vətən övladlarının geriyə, vətənə dönməsini gözləyirik.Siz geri dönüb vətənimizə hakim olarsınızsa, hər şey öz əvvəlki axarına qayıdar.Vətənimizə yeni günəş doğar.

***Xəyallardan ayrılsam da onun təsirindən bir müddət ayrıla bilmirəm. Dodaqaltıpıçıldayıram. Əmin olun babalarımızın narahat ruhları, əmin olun ey qəriblikdə qalan,həsrətliklə yolumuzu gözləyən vətənimin torpağı, daşı, biz tezliklə qayıdacağıq. Yaxıngələcəkdə sizlərlə qovuşacağıq. Atamın işarə etdiyi müqəddəs günəş mütləq doğacaq.Allah sənə rəhmət eləsin, ata!***